# İMTAHAN VƏ NİZAM-İNTİZAM QAYDALARINDAN ÇIXARIŞ

**Dərs buraxan tələbələr imtahanda iştirak edə bilərmi?**

- Hər hansı bir fəndən üzürsüz olaraq **25% və ondan çox** dərs buraxan tələbə **imtahana buraxılmır**.

**İmtahanda iştirak etmək üçün hansı sənəd lazımdır?**

- İmtahana gələn tələbə nəzarətçilərə **tələbə biletini** təqdim etməlidir. Tələbə bileti olmayan tələbələr imtahana buraxılmır.

**Fənn müəllimi tapşırıqlara dair tələbələrin suallarına cavab verə bilərmi?**

- Tapşırıqlara dair tələbələrin suallarının cavablandırılması məqsədi ilə fənn müəllimi 15 dəqiqə ərzində **yazılı materialların düzgün oxunmasına dair** tələbələrin suallarına cavab verir.
- Əgər tələbə imtahan tapşırığında səhv və ya uyğunsuzluq olduğunu hesab edirsə, o, suala dair şəxsi fikrini qeyd etməli və düzgün hesab etdiyi variantda suala cavab verməlidir.

**İmtahanın gedişi**

- Tələbələr imtahana cədvəldə qeyd olunmuş vaxtdan 15 dəqiqə əvvəl gəlməlidirlər. İmtahana gecikən tələbələrə əlavə vaxt verilmir. İmtahanın başlanmasından **on beş (15) dəqiqə** keçəndən sonra gələn tələbələr imtahanda iştirak etmək hüququnu itirirlər.
- Tələbələr imtahan başlanandan sonra 15 dəqiqə müddətində imtahan otağını tərk edə bilməzlər.

**İmtahana gələn tələbələr nə etməlidir?**

- İmtahan başlamamış tələbəyə şəxsi əşyaların saxlanılması üçün yer göstərilir. Tələbə nəzarətçilərin tələbi ilə üzərində olan əşyaları təqdim etməlidir.
- İmtahanda iştirak edən tələbələrin yerləşməsini nəzarətçilər müəyyən edirlər.
- Tələbələr imtahan tapşırıqlarına icazə verilməmiş toxunmamalı və onları oxumamalıdırlar.
- Tələbə adını, soyadını, fənnin adını və imtahan tarixini imtahan tapşırıqlarına tikilmiş kodlaşdırma vərəqəsində qeyd etməlidir. Tələbə bu məlumatları imtahan tapşırıqlarında və ya cavab vərəqlərində qeyd etdiyi halda imtahan işi ləğv olunur və tələbəyə “0” qiymət yazılır.

**Tələbələr imtahan tapşırıqlarının cavablarını hansı rəngli qələmlə yaza bilər?**

- Tələbələr imtahan tapşırıqlarının cavablarını göy və ya qara rəngli qələmlə yazmalıdır. Karandaşdan istifadə etmək qəti qadağandır.
- Çoxseçimli imtahan suallarında ancaq bir düzəlişə icazə verilir. **Bu düzəliş nəzarətçi tərəfindən təsdiq edilməlidir.**

**Tələbələrin imtahan otaqlarına nələrin gətirməsi qadağandır?**

- Kitab, şparqalka xarakterli qeydlər, müxtəlif yazılı vasitələr, lüğət, elektron tərcüməçi, proqramlaşdırılan kalkulyator və digər elektron cihazlarını imtahan otaqlarına gətirməsi qadağandır.
- İmtahan zamanı mobil telefonlardan istifadə etmək və hər hansı bir məqsədlə onlara toxunmaq qəti qadağandır.

**İmtahanda dərslik və əlavə materiallardan istifadə edilməsinə icazə verilirmi?**

- İmtahanda dərslik və əlavə materiallardan istifadə edilməsinə icazə**,** fənnin xüsusiyyəti və müəllimin təklifləri nəzərə alınmaqla, dekan tərəfindən verilir.
- İmtahanın xüsusiyyətindən asılı olaraq, istifadə olunmasına icazə verilən kitab, digər materiallar və kalkulyatordan ancaq bir tələbə istifadə edə bilər, şərikli istifadəyə icazə verilmir.

**İmtahan işini təhvil verəndən sonra tələbələr nə etməlidir?**

- İmtahan işini təhvil verən tələbə imtahan otağını tərk etməlidir.

**Hansı hallarda tələbələr imtahandan xaric edilə və ya imtahan işi ləğv edilə bilər?**

1. Başqa tələbənin əvəzinə və ya başqasının onun əvəzinə imtahan vermək cəhdləri;
2. İmtahan suallarının bir qisminin və ya bütövlükdə hər hansı bir qeyri-qanuni yolla əldə edilməsi halları;
3. Hər hansı bir əlavə vəsaitdən icazəsiz istifadə etmək və ya buna cəhd etmək;
4. Başqasına məsləhət vermək və ya məsləhət almaq cəhdləri, imtahan tapşırığının məzmununun imtahan zamanı müzakirəsi;
5. İmtahan otağını tərk edənədək tələbələr arasında hər hansı bir formada ünsiyyətin olması;
6. İmtahan tapşırığının başqa tələbəyə göstərilməsi, verilməsi, imtahan otağından çıxarılması və ya bunlara cəhd edilməsi;

İmtahan qaydalarının pozuntusuna görə imtahan işi ləğv olunmuşsa, həmin imtahanın təkrar verilməsinə icazə verilmir.

**İmtahanın nəticəsindən narazı olan tələbələr apelyasiya verə bilərmi?**

- İmtahanın nəticəsindən narazı olan tələbə nəticələr elan edildiyi gündən etibarən 5 (beş) iş günü ərzində dekanlığa apelyasiya ərizəsi ilə müraciət edə bilər.
- Apelyasiya verməmiş tələbənin öz işinə baxmasına icazə verilmir.

**Hansı hallarda tələbə imtahan qaydaların pozuntusuna görə universtietdən xaric oluna bilər?**

- Başqa tələbənin əvəzinə imtahan verdikdə;
- İmtahan suallarını hər hansı bir qeyri-qanuni yolla əldə etdikdə (o cümlədən imtahan vaxtı mobil telefon, qulaqlıq və digər elektron vasitələrdən istifadə etdikdə və ya istifadə etməyə cəhd etdikdə).